TARİX VƏ SİYASİ ELMLƏR

**UOT 94**

# GƏDƏBƏY RAYONU QƏDİM YAŞAYIŞ MƏSKƏNİ KİMİ

**Sahib VƏLİYEV**[*]

Məqalə redaksiyaya daxil olmuşdur: 26 dekabr 2022; çapa qəbul edilmişdir: 19 aprel 2023; online-da çap edilmişdir: 31 may 2023.

Received: 26th of December, 2023; accepted: 19th of April, 2023; published online: 31st of May, 2023.

**Açar sözlər**: *Gədəbəy rayonu, arxeoloji tapıntılar, qalalar, qalaçalar, düşərgələr, regional tarix, milli sərvətlər, Xocalı-Gədəbəy mədəniyyəti, Əyrivəng*

## Giriş

Qədim və şərəfli tarixi keçmişə sahib olan Gədəbəy rayonu (bəzi mənbələrdə Ayrum elinin, Ayrum mahalının və Mis mədəninin) minilliklərə istinad edən mövcudluğu dövründə bir neçə dəfə coğrafi yerdəyişməyə məruz qalmışdır. Tarixi-arxeoloji tədqiqatlara, axtarışlara və qazıntılara əsaslanaraq indiki Gədəbəy rayonunun (bəzi mənbələrdə Ayrum elinin, Ayrum mahalının və Mis mədəninin) ərazisində miladdan əvvəl qədim yaşayış məskənlərinin təşəkkül tapdığını, ilk orta əsrlər dövründən etibarən inkişaf edərək, ərazi baxımından genişləndiyini demək olar. Bu cür mühüm qədim yaşayış məskənlərinin əraziləri olan məskənlərin əksəri ötən əsrin birinci yarısına qədər mövcudluğunu qoruyub saxlamışdır. (3, s. 65; 9, s. 62; 11, s. 29)

Tarixin elə sahələri vardır ki, hələ indiyə qədər tam mükəmməl öyrənilməmişdir. Vaxtı ilə bütün Avropanı lərzəyə salmış, üç qitədə – Avropa, Asiya və Afrikada hökmranlıq etmiş türk xalqlarının tarixi, çox təəssüf ki, belələrindəndir. Tarixdə on altıya qədər dövlət yaratmış bu xalqlar sanki XIX-XX əsrlərdə az qala unudulmuş, barədə tədqiqat aparanlar isə fikirlərini olduğu kimi obyektiv şəkildə çatdırmağa bəzən özlərində cəsarət tapa bilməmişlər. Bütün bunlara baxmayaraq, bu xalqların tarixinin bir sıra mühüm mərhələləri diqqətdən yayına bilməmiş, bu məsələ dünya və türk xalqlarının görkəmli, obyektivlik prinsipini özlərinin başlıca həyat memarı hesab edən alimlərimizin nəzərindən qaçmamış, onlar bu mərhələləri tədqiq etmişlər. (4, s. 121; 13, s. 84)

Türkdilli xalqlar arasında elm, texnika, mədəniyyət, təhsil, iqtisadiyyat, ticarət, turizm və maliyyə sahələrində əməkdaşlıq, türk dünyasının mədəni irsinin təbliği, türk gəncliyinin qarşısında duran vəzifələr, onların milli ruhda tərbiyə olunması problemləri bu günün aktual problemlərindəndir.

## Gədəbəy rayonu qədim yaşayış məskəni kimi

XIX əsrdə Gədəbəydə (bəzi mənbələrdə Ayrum elində, Ayrum mahalında, Mədəndə və Mis mədənində) "Simens" qardaşlarının mis mədənində fəaliyyət göstərən Baldemar Belkin qəbirlərdən tapdığı və Almaniyaya göndərdiyi tarixi əşyaların şəkillərini çəkib. "Qalakənd" kitabında bu şəkillərin içərisində tunc dövrünə aid olan səkkizguşəli

[*] *tarix üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
*e-mail*: s.valiyev70@gmail.com

qab-qacağı diqqətimi cəlb etdi. Deməli, 2000 il bundan əvvəl səkkizguşəli ulduzumuzun olduğu da buna əyani sübutdur. Bu onu deməyə əsas verir ki, qədim yaşayış düşərgəsi olan Gədəbəy rayonunun (bəzi mənbələrdə Ayrum elinin, Ayrum mahalının və Mis mədəninin) ərazisində tapılan əşyaların bizim ulu babalarımızın yaratdığı məlum olur. Tapılan bu əşyalar bu ərazilərdə ta qədimdən türk tayfalarının yaşadığını təsdiqləyir. (5, s. 145)

Bu reallıqları təsdiqləmək üçün Gədəbəy rayonu (bəzi mənbələrdə Ayrum eli, Ayrum mahalı, Mədən və Mis mədəni) ərazisində olan türk tayfalarının yaşayış düşərgələrini göstərmək olar. Bunlardan "Oğuz eli", "Qıpçaq yurdu", "Palançılar", "Dulusçular", "Boyaqçılar", "Dəmirçilər", "Misgərlər", "Şüşəçilər", "Bağbanlar", "Qəssablar" kimi qədim tarixə malik olan yaşayış düşərgələri yaranaraq uzun müddət öz mövcudluğunu qorumuşdur. Bu sadalanan qədim yaşayış düşərgələrindən başqa, "Osmanlı papağı", "Türk papağı", "Dağ yarılan", "Palantökən", "Dəyirmi", "Qızıl qaya", "Dilək", "Coruqquçan", "Qartalın quzoyu", "Yayma", "Gözdənək", "Kəsəmən cırımı", "İnəkuçan", "Qədir vurulan bulaq", "Əzgil bulağı", "Xurdanın yurdu", "Dardərə", "Keçi qayası", "Qarapiçən", "Ay doğan", "Kilsən", "Arulquta", "Təkdam", "Oddanaq", "Külfə", "Sarı qaya", "Şişin qayası", "Talvırın talası", "Açıqyal", "Zığ-zığ cırım", "Qandıraşqanın talası", "Zoğallı tap", "Əzgilli cığırı", "Namazın güneyi", "Cəfərağa vurulan", "Sarı çəm", "Dəlikdaş", "Genmeşə", "Nəhrə qaya", "Bundad", "Quş bulağı", "Qalaça", "Bala boyunu", "Təkpalıd", "Balatap", "Böyüktap", "Dodunun binəsi", "Gölün yalı", "Almalı tala", "Şamlıq", "Çolpan" kimi qədim yaşayış yerləri də qədim tarixə malik olan Gədəbəyin (Ayrum eli, Ayrum mahalı və ya Mis mədəninin) ictimai-siyasi iqtisadi və mədəni həyatında əhəmiyyətli mövqeyi ilə seçilmişdir. (3, s.77; 6, s. 99; 7, s. 200; 8, s. 25; 9, s. 50; 10, s. 30).

**Qədim yaşayış düşərgəsi olan Gədəbəy abidələr məskəni kimi**

Mənbələrdə və elmi ədəbiyyatlarda olan müxtəlif səciyyəli məlumatlar təhlil edilərək ilk orta əsrlər dövründən etibarən qədim yaşayış məskəni olan Gədəbəydə (Ayrum eli, Ayrum mahalı və Mis mədənində) Tağılar kəndinin yaxınlığında "Tağılar", "Bala Tağılar" və Murğuz meşələri ətrafındakı "Qoşa dəyirman" adlanan mağaralarından və Göyçə gölünün ətrafındakı "Şur təpə", "Şurtan", "Şurtandüz", "Əyrivəng" və "Çaykənd", Saratovka-İvanovka yolunun üstündəki "Kilsə dərəsi", Çobankənd kəndi yaxınlığındakı "Dəmirlik", "Orta Şurtəpə", "Çaykənd", "Əyrivəng", "Pirbudaq" və "Şurtəpə" və "Şurabad" kəndinin yaxınlığındakı "Qalaça"dan, Qızıltorpaq kəndi yaxınlığındakı "Qızılqaya", Şurtəpə (indiki Şahdağ keçmiş Şurabad kəndi) "Əyrivəng", "Bozdu", "Qırcıllı", "Arıtəpəsi", "Qalaça" və "Bala Çaykənd", "Səngər", "Misgər", indiki Yenikənd kənd ərazisində "Kilsə", "Pirbudaq", "Qırcıllı", "Şurabad" kəndinin (vaxtilə Şurtəpə kimi tanınan ərazi) yaxınlığındakı "Qalaça", "Yanıx dam", "Qaşqaqarı", "Orta Şurtəpə" Paleolit dövrünə aid "Qayalı", "Quzey", "Qədirdərə", "Çınqıltəpə", "Uzundərə", "Caxmaqlı", "Marallı", "Yataq", "Qızılqaya", "Tikdaş", "Qalaça", "Dəmirlik", "Misginli" "Kilsə", "Qızılvəng", "Şurtəp", "Orta Şurtəpə", "Şurtəpə", "Çaykənd", "Daşəsəri", "Qaraqaya", "Yolaşan", "Çöməli", "Karxana", "Göyboyun", "Qatar meşə", "Daşapxac", "Sarıqaya", "Araba yolu", "Sarıyol", "Kanal", "Cillitala", "Soyuqbulaq", "Dərbənd", "Çertdər", "Pirbulaq", "Yolaşan", "Çiçəkli", "Şoraq", "Qırcıllı", "Pirbudaq", "Yalpaya", "Höyər", "Tayçarıx", "Orta tala", "Kötüklü", "Zeynaltala", "Xanımtalası", "Almatala", "Qədirtalası", "Dumanlıtala", "Araba", "Araba yolu", "Əzgilli", "Arabaçı", "Armudluq", "Məlik talası", "Bala qalaç", "Böyüktap", "Zağa", "Məsmalı", "Araba yolu", "Xırman", "Gərməşöylü", "Höyər", "Hacıqurban", "Məsmalı", "Yoxuş yolu", "İmam izi", "Turus", "Bala baqqal", "Böyük baqqal", "Şahtalası", "Daşəsəri", "Qaraqaya", "Tvlğalı", "Şır-şır", "Yolaşan", "Yanıq dam", "Tomba", "Karxana", "Ayölən", "Palantökən", "Xanım çardağı", "Qoşabulaq", "Hacı Məlik", "Qırnıq", "Kalveyi", "Dünyamalı", "Kürd dərəsi", "Yolaşan", "Turus", "Şah ocağı", "Çöməli", "Daş arxac", "Gərgər yurdu", "Dərbənd", "Məbəd", "Qala",

"Qız qalası" "Korvəli", "Şoraq" və başqa asayiş yerlərini qeydə almışdır. Yaşayış məskənlərinin təsvir edilmişdir. Gədəbəy rayonunun (Ayrum eli, Ayrum mahalı və Mis mədəninin) Xar-xar kəndində tunc dövrünə aid "Atabəy" müdafiə qalası. Slavyanka kəndində Tunc Dövrünə aid "Sarınər" və "Çanaxçı" müdafiə qalaları. Maarif kəndində Tunc və dəmir dövrlərinə aid "Şıx" müdafiə qalası, Söyüdlü kəndi yaxınlığında Tunc dövrünə aid "Pirdağ" "Namərdqala" və "Qız qalası", Kiçik Qaramurad kəndində "Dəlmə", "Sarıdaş", Daryurd kəndi istiqamətində "Ələkçi", "Buzlar", "Arxaşan", "Zeynal talası", "Yolaşan", "Kəkil", "Daş bulaq", "Balabulaq", "Sələhli", "Tomba", "Talvır", "Gədəvurulan", "Şırşır", "Aralıq", "Damlı", "Qozsatan", "Buzxana", "Qədimalı", "Pəri talası", "Haçaqaya", "Dəlmə", "Dəlləkli", "Sotulu", "Alaödəkli", "Buzxana", müdafiə qalaçaları, Qalakənd kəndində tunc və dəmir dövrlərinə aid "Ağsu", "Çapığın", "Xənalitəpə" müdafiə qalaları. Yüz illər ərsində qədim yaşayış yerlərinin mədəniyyətinin önəmli göstəriciləri olan bu qədim tarixə malik olan yaşayış yerlərinin bunun kimi də birgəyaşayış ənənələrinin qoruyucuları kimi adət ənənələr və milli mənəvi dəyərlər də burada mühüm rol oynamışdır. (2, s. 114; 3, s. 96; 11, s. 27; 12, s. 45; 13, s. 87; 14, s. 34)

**Qədim Gədəbəydə mədəniyyəti tariximizin izləri**

Gədəbəy rayonunun (Ayrum eli, Ayrum mahalı və ya Mis mədəninin) ərazisində aparılmış arxeoloji tədqiqatlar, axtarışlar və qazıntılar onu deməyə əsas verir ki, XV-XVI əsirlərin sonu XVII əvvəllərinə təsadüf edən son yerdəyişmələrdən əvvəl olduğu kimi, sonrakı dövrlərdə də milli-mənəvi dəyərlərə və tolerant ənənələrə sadiqlik nümayiş etdirilmişdir. XVI əsrin sonlarında Səfəvilər dövlətinin zəifləməsi ilə əlaqədar olaraq Gədəbəy rayonunun (Ayrum eli, Ayrum mahalı və ya Mis mədəninin) mərkəzi və onun ərazisi uzun sürən müharibələr meydanına çevrilmişdir. (1, s. 45; 14, s. 37)

1599-1602-ci illərdə İspan kralının sarayında Səfəvi səfiri olmuş tarixçi, diplomat Oruc bəy Bayatın verdiyi məlumatda Gədəbəy əhalisinin çoxluğu digər ərazilərdən fərqli olmuşdur. Burada belə qənaətə gəlmək olar ki, Gədəbəy rayonu dağlıq ərazi olduğuna görə insanların dağlara çəkilməsini zənn etmək olar. Onu da qeyd edə bilərəm ki, monqol və onun kimi başqa yadellilərin hücumlarına məruz qalanların hamısı bu ərazilərə axın etməsi və qədim yaşayış düşərgəsi olan Gədəbəy ərazilərində məskən salmaları məlum olmuşdur. Burada ictimai və təsərrüfat həyatının xeyli canlanmasının olduğunu XV yüzilliyin əvvəllərindən XVI əsrin sonlarınadək aid edilən arxeoloji tədqiqatlardan, axtarışlardan və arxeoloji qazıntılar zamanı əldə olunan maddi mədəniyyət nümunələrindən də görmək olar. Coğrafi baxımdan Gədəbəy rayonunun ərazisi mün bit şəraitlə zəngin olması, şirin su qaynaqlarının, əlverişli şəraitin olması, çökəkliklərin daha çox olması və yadellilərdən qorunmaq üçün hərtərəfli şəraitin olması oralarda yaşamaq həvəsini insanlarda artırmışdır. Təsərrüfat həyatının və maldarlığın formalaşması da qədim yaşayış düşərgələrində gündən günə genişlənmişdir. (1, s. 58; 15, s. 80)

XIX yüzilliyin 30-cu illərindən başlayaraq, köçürmə siyasətinin təkcə məzmununda yox, formasında da başqa bir meyl özünü göstərməyə başlayır. Məhz bu dövrdən etibarən 1916-cı ilə kimi Rusiya imperiyası Qafqazda öz hərbi-strateji mövqeyini möhkəmləndirmək üçün köçürmə siyasətindən sadəcə xiristianlaşdırmanı yox, ilk növbədə, ruslaşdırmanı irəli çəkir. Bu proses 1930-cu ildə Qafqaz canişini A.P.Yermolovun təşəbbüsü ilə Saratov, Tambov, Voronej, Xarkov, Tavriya, Samara, Penza, Ryazan və s. quberniyalardan cəza məqsədi ilə Sibirə köçürülən təriqətçilərlə başlayır. Bu isə öz növbəsində sosial rifah halının dəyişdirilməsinə mənfi təsir göstərməyə bilməzdi. Bu səbəbdən də əhalinin ümumi vəziyyətinin, onun artım və azalma dinamikasının öyrənilməsi həmin dövrdə baş verən ictimai-siyasi hadisələri başa düşmək üçün müstəsna əhəmiyyətə malikdir.

**Gədəbəydə aparılan arxeoloji tədqiqatlar və axtarışlar arxeologiya elminin forma laşmasında maddi mədəniyyətin və mənəvi sərvətlərin qorunmasının əsas vəzifəsi kimi**

Əlimizdə mötəbər məlumatların olmaması səbəbi ilə XVII-XVIII yüzilliklərdə Gədəbəy əhalisinin (Ayrım elinin və yaxud Ayrım mahalının) ictimai tərkibi haqqında əsaslı fikirlər söyləmək imkanımızın olmadığını desəm, yerinə düşərdi. Əhalinin sosial tərkibi haqqında materiallar XIX yüzilliyin birinci yarısına aiddir. Lakin həmin faktları bəzi Azərbaycan şəhərlərində olduğu kimi əvvəlki dövrlərə şamil etmək (təxmini də olsa) mümkün deyil. Çünki 1802-ci ildə Rusiyaya birləşdirilən indiki Gədəbəy (Mis mədəni, Ayrım eli, və ya Ayrım mahalı) adlanan qədim yaşayış düşərgələrinin ictimai tərkibində baş verən kəskin dəyişikliklər, demək olar ki, bütün sosial qrupları bilavasitə əhatə etmişdi. Qədim yaşayış düşərgələrinin bir hissəsini müsəlman əhalisi tərk edib dağlıq ərazilərə çəkilmişdir. Onların yaşadıqları qədim yaşayış düşərgələri olan ata-baba yurdlarında Rusiyanın ərazilərindən köçürülmüş tatarlar, slavyanlar və xəzərlər yerləşdirilmişdir. Buna misal olaraq, Slavyanka, Korelovka, Sposovka, Komenter, Saratovka və İvanovka yaşayış düşərgələrini qeyd etmək olar. (2, s.145, 4, s.44; 5, s.91; 17, s.79)

Nə yaxşı ki, Baldemar Belkin Gədəbəyin (Ayrum eli, Ayrim mahalı və ya Mis mədənin) ərazisində yerləşən qəbirlərdən tapdığı və Almaniyaya göndərdiyi tarixi əşyaların şəkilləri çəkilib. Göndərdiyi əşyaların şəkilləri "Qalakənd" kitabında verilib. Bu şəkillərin içərisində tunc dövrünə aid olan musiqi alətinin şəkli diqqətimi özünə cəlb etdi. Bu hansı qədim musiqi alətimizdir? (20; 21)

Qıpçaq və Oğuz türkləri haqqında bu yerlərdə istənilən qədər yerli mənbələr fikirlər söyləsələr də nə elmi ədəbiyyatımızda, nə də ki, qədim Azərbaycan tariximizdə, bir cümlə də olsun belə, yazılmayıb.

Qıpçaq və Oğuz türklərinin danışıq ləhcələri gədəbəyliləri tanıyanların hər birinə, yəqin ki, məlumdur, bu yerdə desəydim, yerinə düşərdi. Məsələn, “gəleysin”, “gələrsin”, “gəlerim”, “gəlesin” və. s. Düzdür, bunlar ana dilimizdə öz əksini tapmasalar da, uzun illərdir ki, həmin bölgənin insanları o dialektik sözləri unutmurlar. (11, s. 27)

İslamdan qabaq xristian dinini qəbul etmiş qıpçaq türklərinin bir hissəsi ərəblərin gətirdiyi İslam dinini qəbul etmədilər. Bir hissəsi Azərbaycandan çıxıb Krıma, Lvova, Polşaya çıxıb getdilər, bir hissəsi isə Azərbaycanın dağlıq hissəsində qaldı. Gədəbəydə (Ayrum eli, Ayrum mahalı və Mis mədənində) yerləşən bütün tarixi xristian abidələri ermənilərə yox, qıpçaq türklərinə, yəni bizim babalarımıza məxsusdur. (19)

Burada onu da qeyd edə bilərəm ki, Gədəbəy rayonunun (bəzi mənbələrdə Ayrum eli, Ayrum mahalı və ya Mis mədəni) 8 minillik tarixi, qədim qəbiristanlıqları, tarixi abidələri ilə zəngin olan qədim tarixə malik olan qədim yaşayış yeri haqqında, az da olsa, Almaniyada nəşir olunan "Qalakənd" kitabında məlumat verilib. Bu qədim tarixə malik olan yaşayış düşərgəsində elinə-obasına şöhrət gətirən igidlər, aşıqlar, alimlər, ziyalıların çıxması haqqında ağız dolusu danışılır və həmişə də o qədim yaşayış düşərgəsi olan Vətənin başını ucaldan söz açılır. Ancaq çox əfsuslar olsun ki, Xocalı-Gədəbəy mədəniyyətindən başqa bu qədim tarixə malik olan yaşayış məskənlərindən müasir tariximizdə söz açılmır. (6, s. 201; 18)

**Nəticə**

Aparılan arxeoloji tədqiqatlar, axtarışlar və qazıntıları nəzərə alaraq qeyd etməliyik ki, qədim tarixə malik olan Gədəbəy rayonunun ərazisindən, yaşayış yerlərindən tapılan və əldə olunan maddi mədəniyyət nümunələri və qalıqları bu gün Xocalı-Gədəbəy mədəniyyətini tarixdə irəliləyiş və yeniliklər olan bir mərhələ kimi xarakterizə edir və yadda qalır. Xocalı-Gədəbəy mədəniyyəti materiallarının, bunun kimi də ayrıca qədim Gədəbəy yaşayış düşərgələrindən tapılanların özünəməxsus xüsusiyyətləri vardır. Gəlinən nəticələr

bu dövrdə yeniliklərin olmasından xəbər verir. Məsələn, aşkar olunan tikili qalıqları, məişət avadanlıqları, daş alətlər, bəzək əşyaları və silahlar öz çeşidi ilə diqqəti cəlb edir. O dövrdə silahların əksəriyyəti tuncdan hazırlanırdı. Tunc silahlar həmin dövr üçün zəruri idi. Bu elə bir dövr idi ki, iri tayfa ittifaqları yaranırdı, müharibələrin və toqquşmaların sayı çoxalırdı. Buna uyğun olaraq Gədəbəy rayonunun qədim yaşayış yerlərindəki arxeoloji tədqiqatlarda, axtarışlarda və qazıntılarda tunc silahlar, xəncər, toppuz, ox ucları, eləcə də tuncdan hazırlanmış çoxlu qazanlara rast gəlinir. Kəmərlər üzərində olan naxışlar, oymalar diqqəti cəlb edir. Saxsı qabların üzərində heyvan, ox, səma, qiymətli əşyaların, o cümlədən boyunbağılarının təsvirləri göz oxşayır. (15)

Tədqiqatın, axtarışın və arxeoloji qazıntının nəticəsi olaraq qədim yaşayış yeri olan Gədəbəy rayonunda və onun ətraf kəndlərində yerləşən siklop tikintiləri üç qrupa bölmək olar. Onlardan birinci yaşayış yeri, ikincisi müdafiə və üçüncüsü heyvanların sığınması və saxlanması üçün istifadə olunan tikililəri qeyd edə bilərəm.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1. Cəfərzadə İ.M. Azərbaycan tarixinin ən qədim dövrü. Bakı: Azərnəşr, 1956.,122 s.
2. Cəfərov Ə.Q. Azərbaycan qədim insan məskənidir. Bakı: Azərnəşr, 1989, 157 s.
3. Hüseyinov M.M. Azərbaycanın arxeoloji abidələri. Dərslik, N.M.Quliyev, Bakı: Azərnəşr, 1981, 217 s.
4. Məmmədova F.S. Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası. Dərslik. Bakı: Elm, 1993, 214 s.
5. Moisey Kalankatuklu. Albaniya tarixi. Bakı: Elm, 1993, 174 s.
6. Osmanov F.A. Qafqaz Albaniyasının maddi mədəniyyəti. Dərslik. Bakı: Elm, 1982, 213 s.
7. Vəliyev S.T. Azərbaycan arxoelogiyasının mürəkkəb və ziddiyyətli məsələləri // Sivilizasiya, 2018, c.7, №1 (37), s.196-201.
8. Vəliyev S.T. Arxeologiya elmini dərk üçün zəruri olan düşünmə prosesləri // ADMİU-nun "Elmi əsərlər"i, 2018, №25, s.22-27.
9. Vəliyev S.T. Arxeologiya elmi Azərbaycan tarixinin öyrənilməsində bir mənbə kimi // Sivilizasiya, 2019, cild 8, №1 (41), s. 59-65.
10. Vəliyev S.T. Azərbaycan arxeologiyası – maddi mədəniyyətimizin əsas mənbəyi kimi // ADMİU-nun "Elmi əsərlər"i, 2019, №27, s. 27-34.
11. Vəliyev S.T. Arxeoloji mədəni sərvətlərin tədqiqi // Sivilizasiya, 2020, cild 9, №1 (45), s, 23-34.
12. Vəliyev S.T. Müasir arxeologiya elminin inkişafı ictimai-iqtisadi formada təhlil obyektinə çevrilməkdədir // Sivilizasiya, 2021, c.10, №1 (46), s, 44-49.
13. Vəliyev S.T. Müasir Arxeologiya elmi-ictimai-iqtisadi təhlil obyekti kimi // Sivilizasiya, 2021, c.11, №4 (47), s, 82-89.
14. Vəliyev S.T. Azərbaycan abidələr məskənidir // Sivilizasiya jurnalı, 2022, c.11, №2 (51), s, 35-41.
15. Vəliyev S.T. Azərbaycan Etnoqrafiyasının inkişaf mərhələləri // Elm və İnnovativ Texnologiyalar Beynəlxalq Elmi Araşdırmalar Jurnalı. 2021, №23, s. 77-84.
16. Vəliyev S.T. Arxeoloji qazıntılar əsasında Gədəbəyin regional tarixi // Mədəniyyət dünyası (elmi-nəzəri məcmuə), XXXXII buraxılış, 2022, s. 33-44.
17. Valiyev S.T. Historical heritage of Azerbaijan. Ajalooline Ajakiri // The Estonian Historical Journal. Väljaandja Tartu Ülikooli Kirjastus. Published by University of Tartu Press W. Struve 1. 2022, pp. 76-86.

**Xarici dillərdə:**

18. Bosworth C.E. Azerbaican IV: Islamic History to 1941 // Encyclopaedia Iranica, vol. 3.1, London: Routledge & Kegan Paul,1989, 166 pp.
19. Planhol X. Azerbaican I: Geography // Encyclopaedia Iranica, Vol. 3.1, London:

Routledge & Kegan Paul, 1989, 177 pp.
20. Frye R.N. The History of Ancient Iran. München, 1983, 172 page.
21. Schippmann K. Azerbaijan III: Pre-Islamic History // Encyclopaedia Iranica, Vol. 3.1, London: Routledge & Kegan Paul, 1989, 149 pp.

***Резюме***

***Сахиб Велиев***

***Кедабекский район как древнее поселение***

Как и в начале существования Азербайджана, Гедабек (в некоторых источниках Айрумская страна, Айрумский район, Мадан и медный рудник) имел сложную, бурную и богатую историю политического и экономического развития в древний и средневековый период. (1, стр. 112)

Разные племена, кланы, династии и правители попеременно правили друг другом, а средневековый феодальный строй сопровождался пробуждением науки, культуры и литературы с разными языками, но с богатым содержанием.

Как и в Азербайджане, в Кедабеке, о котором я хочу рассказать (в некоторых источниках Айрум ели, Айрумский район, Мадан или Медный рудник), наука, искусство и литература не развивались по разным причинам из-за феодальных традиций и обычаев. Как и в Ходжалы-Гадабекской культуре (2, с. 145).

В древнем Гедабеке (в одних источниках, в стране Айрум, Айрумском районе и Медном руднике) развитие культуры основывалось на художественном мышлении народа и родном устном творчестве, с другой стороны, оно было связано с литературными образцами. которые дошли до нас в письменных примерах и следах.

***Ключевые слова:*** *Кедабекский район, археологический памятник, замок, стоянки, история края, национальное богатство, Хосалы-Гадабекская культура, «Эйривенг» Гедабекская культура, «Эйривенг»*

***Summary***

***Sahib Veliyev***

***Gadabay District as an Ancient Settlement***

As it was at the beginning of Azerbaijan, Gadabay (in some sources, Ayrum country, Ayrum district, Madan and copper mine) had a complex, turbulent and rich history in terms of economic, political and economic development in the ancient and medieval period. (1, p. 112)

Different tribes, clans, dynasties and rulers alternately ruled each other, and the medieval feudal system was accompanied by the awakening of science, culture and literature with different languages, but with rich content.

As it is in Azerbaijan, in Gadabay, which I want to talk about (in some sources Ayrum eli, Ayrum district, Madan or Copper Mine), science, art and literature did not develop due to various reasons due to feudal tradition and customs. As in the Khojaly-Gadabey culture. (2, p. 145)

In ancient Gadabey (in some sources, in Ayrum country, Ayrum district and Copper Mine), the development of culture was based on the artistic thinking of the people and the native oral art, on the other hand, it was connected with the literary examples that have reached us in written examples and traces.

***Key words:*** *Gadabay district, archaeological site, castle, camps, regional history, national wealth, Khosaly-Gadabay culture, "Eyriveng" Gadabey culture, "Eyriveng"*

Redaksiya heyətinin üzvü t.e.d., prof. Şükürov Kərim Kərəm oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.